

# 8 Noyabr
# Milli Qürur Günümüz

Metodik vəsait

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

AZƏRBAYCAN
MİLLİ
KİTABXANASI

# 8 Noyabr – Milli Qürur Günümüz

## Metodik vəsait

*Respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik vəsait*

**BAKI – 2025**

**Tərtibçi**: **A.Məmmədova**

**İxtisas redaktoru**: **K.M.Tahirov,**
*Professor, Əməkdar mədəniyyət işçisi*

**Redaktor:** **Aygün Koçak**

**8 Noyabr – Milli Qürur Günümüz:** metodik vəsait /Tərt. A.Məmmədova; ixtisas red. K.M.Tahirov; red. A.Koçak.- Bakı, 2025.- 40 s.

**© Azərbaycan Milli Kitabxanası, 2025**

## Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

XX əsrin 80-ci illərinin sonları - 90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda hökm sürən hərc-mərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20%-ni işğal etmiş, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüşdür.

Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə nəticə verməmişdir.

2019-cu ildən etibarən isə Ermənistan hərbi-siyasi rəhbərliyinin bir-birinin ardınca verdiyi təxribatçı bəyanatlar və atdığı addımlar danışıqlar prosesini məqsədyönlü şəkildə tamamilə pozmuşdur. Bununla Ermənistan bir daha özünün əsl məqsədinin mövcud status-kvonu möhkəmləndirməkdən və Azərbaycan ərazilərini ilhaq etməkdən ibarət olduğunu nümayiş etdirmişdir.

Ermənistanın qəbul etdiyi təcavüzkar və hücum xarakterli milli təhlükəsizlik strategiyası və hərbi doktrina, işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətini genişləndirməsi, “yeni

ərazilər uğrunda yeni müha- ribə” çağırışı, mülki şəxslərdən ibarət “könüllü dəstələri” yaratmaq qərarı, 2020-ci il iyulun 12-də Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində təxribat törətməsi, eyni zamanda, bütövlükdə qoşunların təmas xəttində gərginliyi artırması, cəbhə xəttinə yaxın ərazilərdə qoşunlarını cəmləşdirməsi, böyük həcmdə silah-sursat toplaması Ermənistanın genişmiqyaslı hücuma hazırlaş- dığını göstərirdi.

Azərbaycan dəfələrlə bəyan etmişdi ki, Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdə qanunsuz mövcudluğu regionda sülh və təhlükəsizlik üçün əsas təhdiddir və hər zaman vəziyyətin gərginləşməsinə səbəb ola bilər.

Ermənistanın təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə başladı. Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu.

44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi.

Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-

istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi.

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi.

Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə qərara alıram:

1. Hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 3 dekabr 2020-ci il*

## Tərtibçidən

Tarix yalnız hadisələrin xronologiyası deyil, həm də millətin yaddaşı, kimliyi və gələcək nəsillərə ötürüləcək mənəvi mirasıdır. **8 Noyabr – Zəfər Günü** bu yaddaşın ən şanlı səhifəsidir. 44 günlük Vətən müharibəsində qazanılmış parlaq qələbə təkcə torpaqlarımızın işğaldan azad olunması deyil, eyni zamanda Azərbaycan xalqının milli ruhunun, birliyinin və dövlətçiliyinin sarsılmazlığının təntənəsidir.

Hazırkı metodik vəsait Zəfər Günü ilə bağlı kitabxanalarda keçirilə biləcək tədbirlərin planlaşdırılması, ideyaların sistemləşdirilməsi və yeni formatların təqdim olunması məqsədi ilə hazırlanmışdır. Məqsəd yalnız qələbəni qeyd etmək deyil, bu qələbənin arxasında duran tarixi, şəhidlərimizin qəhrəmanlığını və milli kimliyimizin bütövlüyünü istifadəçilərə, xüsusilə gənclərə aşılayan tədbirlərin həyata keçirilməsinə dəstək verməkdir.

Nəşrlə bağlı rəy və təkliflərini Milli Kitabxanaya ünvanlayan mütəxəssis və oxuculara əvvəlcədən öz minnətdarlığımızı bildiririk.

Ünvan: AZ-1000, Bakı şəh., Xaqani küç. 57
E-mail: contact@anl.az
URL: www.millikitabxana.az

## Zəfər günü – tarixi qələbənin əbədiləşdirilməsi

Azərbaycan xalqının müasir tarixində şanlı və dönüş nöqtəsi olan hadisələrdən biri də **8 Noyabr – Zəfər Günü**dür. Bu gün Azərbaycan xalqının əzmini, milli birliyini, dövlətə və orduya inamını təcəssüm etdirən, illərlə həsrətində olduğu torpaqlara qovuşmasının rəmzinə çevrilmiş bir tarixdir. 2020-ci ilin payızında baş vermiş və cəmi 44 gün davam edən Vətən müharibəsi Azərbaycanın hərbi və siyasi qələbəsi ilə nəticələnmiş, işğal altında olan torpaqlarımız azad edilmiş, ərazi bütövlüyümüz bərpa olunmuşdur.

**Zəfər Günü** – yalnız bir hərbi uğurun deyil, 30 ilə yaxın davam edən ədalətsizliyə, işğala və soyqırımlarına qarşı xalqımızın misilsiz dözümünün və mübarizliyinin nəticəsidir. Bu zəfərin təməlində şəhidlərin qanı, qazilərin fədakarlığı, ordumuzun peşəkarlığı, dövlətimizin qətiyyəti dayanır.

Şuşanın azad edilməsi ilə Azərbaycanın müasir tarixi yeni bir mərhələyə qədəm qoydu. Prezident, Ali Baş Komandan İlham Əliyevin 8 noyabr 2020-ci ildə xalqa verdiyi müjdə — **“Şuşa azaddır! Qarabağ Azərbaycandır!”** bəyanatı xalqın qəlbində silinməz iz qoydu.

44 günlük Vətən müharibəsi Azərbaycan üçün tarixi dönüş nöqtəsi oldu. 27 sentyabrda düşmənin genişmiqyaslı təxribatlarına cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Müharibənin ilk böyük uğuru 4 oktyabrda Cəbrayılın azad edilməsi ilə gəldi. Ardınca 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan və 25 oktyabrda Qubadlı işğaldan azad edildi. Nəhayət, 8 noyabrda Şuşa şəhərinin azad olunması ilə Azərbaycanın tarixi qələbəsi rəsmiləşdi.

Bu əməliyyatların hər biri yalnız taktiki deyil, həm də simvolik əhəmiyyətə malik idi — xalqın qüruru, dövlətin gücü öz torpaqlarında öz sözünü dedi. Böyük qələbədən sonra, 10 dekabrda Bakıda **Zəfər**

**Paradı** keçirildi və Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə **8 noyabr** tarixi rəsmi olaraq **Zəfər Günü** elan edildi.

Zəfər təkcə bir torpaq məsələsi deyildi. Bu gün Qarabağda bərpa-quruculuq işlərinin aparılması, doğma yurdlarına qayıdan insanların həyatlarının yenidən qurulması göstərir ki, bu zəfər həm də **böyük qayıdışın** başlanğıcıdır. 2021-ci ildən başlayaraq işğaldan azad edilmiş ərazilərdə geniş bərpa və quruculuq işlərinə başlanıldı. Bu dövrdə Zəfər Günü münasibətilə keçirilən tədbirlərdə şəhidlərin xatirəsi yad edildi, müharibə iştirakçılarına yüksək qiymət verildi və xalqın qəhrəmanlıq ruhu vurğulandı. 2022-ci ildə ərazilərdə davam edən layihələr, infrastrukturun bərpası və insanların doğma yurdlarına qayıtması diqqət mərkəzində oldu.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə **8 Noyabr** tarixinin **"Zəfər Günü"** elan edilməsi bu tarixi hadisənin milli yaddaşda əbədiləşdirilməsinə xidmət edir. Həmçinin, şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi üçün *"8 noyabr" metro stansiyası, Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyi (kompleksin tərkibinə Zəfər Muzeyi, Zəfər Parkı və Hərbi Qənimətlər Parkı daxildir, Gəncə Memorial Kompleksi* kimi bir sıra layihələr reallaşdırılıb.

Tarixi Zəfər yalnız döyüş meydanında qazanılmadı. Azərbaycan informasiya savaşında da üstünlük qazandı. Zəfər Günü çərçivəsində keçirilən tədbirlərdə Azərbaycanın ərazi bütövlüyünün bərpası və regionda sülhün təmin edilməsi mövzuları müzakirə edildi. Dövlət başçısının beynəlxalq tribunalardan səsləndirdiyi haqlı mövqe, milli maraqların qətiyyətlə qorunması, regionda yeni geosiyasi reallığın yaradılması bu Qələbənin siyasi əsaslarını möhkəmləndirdi.

Bu gün Zəfər Günü təkcə bir bayram deyil, həm də milli özünüdərkin, vətəndaş məsuliyyətinin və gələcək nəsillərə vətən sevgisinin ötürülməsi üçün mühüm fürsətdir. Kitabxanalar, təhsil

müəssisələri və mədəniyyət ocaqları bu yaddaşın qorunmasında mühüm rol oynayırlar. Bu gün gənclərimizə 44 günlük Vətən müharibəsinin dərsləri, şəhidlərimizin qəhrəmanlığı, dövlətimizin apardığı haqlı mübarizə aşılanmalıdır.

Zəfər Günü hər bir azərbaycanlının fəxr etdiyi tarixdir. Bu tarix göstərdi ki, xalq bir olduqda, lider güclü olduqda və ordu peşəkar olduqda heç bir qüvvə bizi yolumuzdan döndərə bilməz. **Qarabağ Azərbaycandır** — bu ifadə artıq yalnız siyasi şüar deyil, tarixi reallıqdır.

Əldə olunan Zəfər təkcə bir hərbi qələbənin xatirəsi deyil, həm də şəhidlərin qanı, qazilərin fədakarlığı və dövlətin qətiyyətinin simvolu kimi xalqın milli yaddaşında əbədi iz qoydu. Bu zəfər xalqımızın gələcəyinə inamı artırdı, milli birliyimizi gücləndirdi və yeni bir tarix yazdı.

## Zəfər Günü ilə bağlı kitabxanalarda keçiriləcək tədbirlər

Zəfər Günü Azərbaycan xalqının qəhrəmanlıq iradəsini, torpaqlarımızın azadlığı uğrunda aparılan mübarizənin zəfərlə başa çatdığını simvolizə edən əlamətdar gündür. Bu günün qeyd olunması tariximizin unudulmaz səhifələrini gənc nəslə çatdırmaq, vətənpərvərlik ruhunu gücləndirmək və şəhidlərimizin əziz xatirəsini ehtiramla anmaq məqsədi daşıyır. Kitabxanalar da bu missiyanın həyata keçirilməsində mühüm rol oynayaraq müxtəlif tədbirlər vasitəsilə Zəfər Gününün mahiyyətini geniş ictimaiyyətə təqdim edir. Bu tədbirlər tariximizi yaşatmaqla yanaşı, milli dəyərlərin təbliği və gənclərin maarifləndirilməsi üçün də önəmli platforma yaradır.

Kitabxanalar üçün ***"Zəfər tarixi"*** adlı **elektron məlumat bazasının** hazırlanması və bu resursun həm kitabxana saytında, həm də sosial şəbəkələrdə yerləşdirilməsi tövsiyə olunur. Məlumat bazası Vətən müharibəsi və 8 Noyabr – Zəfər Günü ilə bağlı mövcud sənədləri sistemli şəkildə bir araya gətirməklə istifadəçilərə daha əlçatan və rahat məlumat mənbəyi təqdim etməyə xidmət edir.

Elektron məlumat bazasının tərtibində kitabxanaların öz fondlarında mövcud olan resurslarla yanaşı, Azərbaycan Milli Kitabxanasının (*https://www.millikitabxana.az/*) fondu və elektron kitabxanasında yerləşdirilən materiallardan da istifadə edilməsi məqsədəuyğundur.

Hazırlanmış məlumat bazası gənclərin, yeniyetmələrin və ümumilikdə geniş istifadəçi auditoriyasının Vətən müharibəsinə dair rəsmi sənədlərlə, tarixi mənbələrlə tanışlığına şərait yaradacaq. Eyni zamanda, kitabxanalar tərəfindən təşkil edilən vətənpərvərlik mövzusunda tədbirlərdə bu resursdan istifadə təqdimat və maarifləndirmə baxımından əlavə imkanlar açacaq.

**Nümunə:**

**“Zəfər tarixi”**

Elektron məlumat bazası

✓ Rəsmi sənədlər və qanunvericilik aktları
- *Prezident sərəncamları*
- *Qanunlar*
- *Fərmanlar*

✓ Dövlət başçısının fəaliyyətləri və çıxışları
- *Müraciətlər*
- *Çıxışlar*
- *Sosial media paylaşımları*

✓ Qələbənin tarixi və müharibənin gedişi
- *Əsas hadisələr*
- *Müharibə mərhələləri və analiz*

✓ İşğaldan azad edilən ərazilər
- *Rayon, şəhər və kəndlərin siyahısı*
- *Xəritələr*

✓ Şəhidlər

✓ Müharibə ilə bağlı elmi və publisistik əsərlər

✓ Multimedia resursları
- *Fotoqalereyalar*
- *Videoçarxlar*
- *Sənədli filmlər*

Zəfər Gününün ildönümü ilə bağlı kitabxananın fondunda mövcud olan sənədlər və elektron resurslar əsasında **virtual sərgi**lərin hazırlanması ən təsirli vasitələrdən hesab olunur. Virtual sərgilərin hazırlanması kitabxana resurslarının daha geniş auditoriyaya çatdırılmasına imkan verir. Virtual sərgilər interaktiv və multimedia

elementləri ilə zənginləşdirilərək mövzuya marağı artırır. Sərgidə kitab və məqalələrə dair məlumatlarla yanaşı, foto, video, audio və digər rəqəmsal materiallar da istifadəçilərə təqdim edilə bilər.

Hazırlıq prosesində hər bir material üçün qısa izahlı annotasiya və kitabın üz qabığının təsviri əlavə edilir, elektron versiyalar və ya onlayn resurslara keçidlər yerləşdirilir, sərgi kitabxananın saytında, sosial şəbəkə səhifələrində və digər platformalarda paylaşılır. Belə yanaşma kitabxananın rəqəmsal xidmətlərini inkişaf etdirir, istifadəçilərin mövzunu daha rahat araşdırmasına şərait yaradır.

**Nümunə:**

**Salyd 1:** Sərginin başlığı

**"8 Noyabr – Vətənimizin Zəfəri"**

**Slayd 2:** *Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 2 dekabr 2020-ci il //Azərbaycan.- 2020.- 3 dekabr.- S.1.* *http://www.anl.az/down/meqale/azerbaycan/2020/de kabr/729823.htm*

**Slayd 3: Kitablar**

➢ *Əliyev, N. 8 Noyabr Zəfər günü - suverenliyə aparan yol: [monoqrafiya] /Nurulla Əliyev; layihə rəhb. G.Ə.Əbdülov; elmi red. A.H.Həsənov; baş red. Y.K.Kərimov; red. S.N.Ələkbərova; Azərb. Resp. Milli Müdafiə Un-ti.- Bakı: [AFpoliqrAF], 2025.- 213, [3] s.*

➢ *Qəhrəmanlıq salnaməsi: Zəfər gününə həsr olunmuş yazı müsabiqəsinin toplusu /[Milli İrsi Mədəni Tarixi Araşdırmalar Fondu (MİMTA)]; buraxıl. məsul S.Ramizoğlu; red. Ə.Aslanoğlu; red. hey.: A.Əziz [ön söz [və b.]]; qapaq dizaynı M.Əziz.- Bakı: MİMTA*

*Yayımları, 2022.- 448, [7] s.*

➢ *Vəliyeva, Z. Zəfərimiz mübarək: [Zəfər günü: 8 Noyabr] /Zülfiyyə Vəliyeva; red. və naşir M.Borçalı; [buraxıl. məsul İ.Sabirqızı].- Bakı: "Borçalı"; İstanbul, 2024.- 120 s.*

**Slayd 4: Qəzet və jurnallarda dərc edilən məqalələr**

- *Binyatoğlu, V. Vətən müharibəsinin xronikası: 8–9 noyabr: Zəfər marafonunun 43 və 44-cü günləri /Vaqif Binyatoğlu //Xalq qəzeti.- 2024.- 8 noyabr (№247).- S.12.*

  http://www.anl.az/down/meqale/xalqqazeti/2024/noyabr/918774(meqale).pdf

- *Nəcəfov, Ş. Arxeologiyamızın 8 noyabr səhifəsi: 8 noyabr Zəfər Bayramı /Şamil Nəcəfov //Elm.- 2024.- 7 noyabr (№36).- S.6.*

  http://www.anl.az/down/meqale/elm/2024/noyabr/933308(meqale).pdf

- *Yusifoğlu, İ. Zəfər Günü: 8 Noyabr zəfər nəğməsi /İbrahim Yusifoğlu //Elm.- 2024.- 7 noyabr (№36).- S.8.*

  http://www.anl.az/down/meqale/elm/2024/noyabr/933298.htm

**Slayd 5: Sitat**

*"Bu zəfər Azərbaycan xalqının iradəsinin, mübarizliyinin və vətənpərvərliyinin təcəssümüdür".*

*"Azərbaycan xalqı öz torpaqlarını işğaldan azad etdi və bu, bizim böyük qələbəmizdir".*

*"Bizə yeni müharibə lazım deyil. Biz istədiyimizə nail olduq, beynəlxalq hüququ bərpa etdik, tarixi ədaləti bərpa etdik, milli ləyaqətimizi bərpa etdik, düşmənə onun yerini göstərdik".*

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

**Slayd 6:** Qəhrəmanlar və iştirakçılar – şəkillərlə birlikdə qısa məlumatlar.

Bu slaydda Zəfər Gününün qəhrəman əsgər və zabitləri təqdim olunur. Onlar fədakarlıqları ilə ölkəmizin ərazi bütövlüyünü bərpa etdilər. Bu qəhrəmanlıq gələcək nəsillər üçün nümunədir.

**Slayd 7:** Sərgini hazırlayan kitabxananın ünvanı, əlaqə telefonları, saytı və e-mail ünvanı.

**Zəfər Günü** ilə bağlı dövri nəşrlərdə dərc edilmiş məqalələri seçərək qısa xülasələrini verməklə **daycest** hazırlamaq olar. Daycesti hazırlayan zaman Milli Kitabxananın elektron kataloqunda axtarış aparmaq (*http://ek.anl.az/search/query?theme=e-kataloq*) və elektron resurslarından bəhrələnmək olar.

Daycestləri ***"Zəfər günü – tarixi qələbəmiz", "8 noyabr: Şanlı Zəfər", "Zəfər: tarixi və perspektivlər"*** və s. mövzularda tərtib etmək olar. Hazırlanmış daycesti elektron formada kitabxananın saytında, sosial şəbəkələrdə yerləşdirməklə də istifadəçilərin diqqətini bu mövzuya yönəldə bilərsiniz.

Kitabxanalar həmçinin ***"Şəhidlərimizi tanıyaq!"*** adlı **bioqrafik oxu marafonu** təşkil edə bilərlər. Bu tədbirin əsas məqsədi şəhidlərimizin həyat yolunu və qəhrəmanlıq nümunələrini istifadəçilərə və xüsusilə gənc nəslə tanıtmaqdır. Marafon üçün əvvəlcədən şəhidlərə həsr olunmuş kitablar, məqalələr, xatirə topluları və elektron resurslar seçilərək tədbir guşəsində nümayiş etdirilməlidir.

Tədbirin Dövlət Himninin səsləndirilməsi və şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla anılması ilə başlanması tövsiyə olunur. Daha sonra iştirakçılar hər biri bir şəhid haqqında hazırladıqları qısa bioqrafik təqdimat və ya çıxışla çıxış etməlidir. Çıxışlar arasında şəhidlərin həyatından bəhs edən foto və video materiallar göstərilə bilər.

Təşkil edilən tədbir istifadəçilər arasında həmrəyliyi gücləndirərək, vətənpərvərlik hisslərinin formalaşmasına böyük töhfə verəcəkdir. Fəal iştirakçılar tədbirin sonunda təşəkkürnamələrlə mükafatlandırıla bilər. Oxu marafonu nəticəsində toplanan materialların kitabxananın arxiv fonduna və elektron bazasına əlavə edilməsi tövsiyə olunur. Layihə həm maarifləndirici, həm də tərbiyəvi xarakter daşıyır və kitabxanaların vətənpərvərlik mövzusunda fəaliyyətinə zəngin məzmun gətirəcəkdir.

Kitabxanalar bu tarixi qələbə ilə bağlı ***"Qələbə dastanımız"*** adlı **uşaq və gənclər üçün hekayə yaradıcılığı günü** təşkil edə bilərlər.

Bu layihənin məqsədi uşaqların və gənclərin yaradıcılıq bacarıqlarını inkişaf etdirmək və Vətən sevgisini gücləndirməkdir. Tədbir kitabxanada və ya məktəblərdə xüsusi guşədə keçirilə bilər. Bu zaman iştirakçılara Vətən müharibəsi və Zəfər Gününün əhəmiyyəti barədə qısa məlumat verilməli, daha sonra iştirakçılara hekayə yazmaq üçün müxtəlif istiqamətlər və başlıqlar təqdim olunmalıdır. Onlara şəhidlərimizin qəhrəmanlığı, Qarabağın tarixi və azad edilmiş torpaqların gözəlliyi mövzularında yazmaq tövsiyə edilir. Yaradıcılıq prosesinə kömək üçün kitabxananın fondundan fotoşəkillər, videoçarxlar və kitab nümunələri təqdim oluna bilər.

Yazılan hekayələr münsiflər heyəti tərəfindən qiymətləndirildikdən sonra seçilmiş hekayələrin kitabxanada sərgilənməsi tövsiyə olunur. Ən yaxşı əsərlər kitabçaya çevrilərək oxuculara paylana bilər. Tədbir uşaqların və gənclərin tariximizi daha

dərindən öyrənməsinə və milli kimliyə bağlılığının artmasına xidmət edir. Layihə həm də ədəbi yaradıcılığa marağı artıran vətənpərvərlik layihəsi kimi təşkil olunmalıdır.

Zəfər Günü ilə əlaqədar kitabxanalarda təşkil olunacaq növbəti tədbirlərdən biri də **"Zəfər Günü – Film və müzakirə klubu"** ola bilər. Bu tədbir gənclər və böyüklər üçün Vətən müharibəsi mövzusunda maarifləndirici və emosional təsiri güclü olan layihədir. Tədbirdə əvvəlcə müharibəyə və Qələbəyə həsr olunmuş sənədli və ya bədii filmlər nümayiş olunmalı, film nümayişi üçün kitabxanada xüsusi guşə və ya tədbir zalı hazırlanmalıdır. İştirakçıların filmdən sonra təəssüratlarını bölüşüb, müzakirə aparıb, suallar verməsi tövsiyə olunur. Müzakirəni kitabxana əməkdaşları və ya dəvət olunmuş mütəxəssislər aparmalıdır.

Tədbirin əsas məqsədi tarixi hadisələri gənclərə emosional formada çatdırmaqdır. Film göstərişi zamanı foto və arxiv materialları ilə zənginləşdirilmiş slaydlar da nümayiş etdirilə bilər. Tədbir iştirakçılarda milli dəyərlərə və tarixə marağı artırır. Fəal iştirakçılara təşəkkürnamələr təqdim olunması məqsədəuyğun hesab olunur. Klub formatı tədbirin davamlı olaraq təşkilinə imkan yaradır.

Zəfər Günü ilə bağlı uşaq və yeniyetmələr arasında təşkil edə biləcəyiniz növbəti tədbirlərdən biri də ***"Qarabağ – dünən və bu gün"*** adlı **foto-müsabiqədir.** Bu layihə Qarabağın işğaldan əvvəlki, işğal dövründəki və işğaldan sonrakı görüntülərini əks etdirən fotoşəkillərin toplanması və sərgilənməsini hədəfləyir. Tədbirə kitabxana oxucuları, gənclər və həvəskar fotoqraflar cəlb edilə bilər.

Bu zaman iştirakçılar çəkdikləri fotoları müsabiqəyə təqdim edirlər və seçilmiş şəkillər sərgidə nümayiş olunur. Fotoşəkillər mövzu üzrə qruplaşdırılır və izahlı mətnlərlə təqdim olunur. Müsabiqənin nəticələri elan edilərək qaliblərə diplom və hədiyyələr təqdim edilə bilər. Tədbir Qarabağın tarixi və mədəni irsinin daha

geniş tanınmasında böyük rol oynayacaqdır. Foto-müsabiqə həm canlı, həm də virtual formada təşkil edilə bilər. Bu zaman kitabxananın sosial media səhifələrində qaliblərin işlərinin paylaşılması tövsiyə olunur. Bu cür tədbirlər oxucuların yaradıcı bacarıqlarının ortaya çıxarılmasında böyük əhəmiyyətə malikdir. Belə ki, Qarabağ haqqında faktlar fotolar vasitəsilə daha emosional çatdırılır.

Azərbaycanın ərazi bütövlüyü və azadlığı uğrunda canlarından keçən şəhidlərin **anım (xatirə) günlərinin** keçirilməsi də vacib tədbirlərdən biridir. Çünki vətən yolunda qurban getmiş şəhidlər məhz bu günümüz üçün canlarını qurban verərək həmin zirvəyə yüksəlmişlər. Anım günü ilə əlaqədar əvvəlcədən hazırlıq işləri görülməli, fotostendlər, sərgilər, video çarxlar, slayd-şoular hazırlanmalı, sənədli filmlər göstərilməlidir. Tədbiri keçirmək üçün ictimaiyyət nümayəndələrini, şəhidlərin yaxınlarını, övladlarını, eləcə də hadisənin şahidlərini dəvət etmək, regionlarda abidə komplekslərini ziyarət etmək məqsədəuyğun hesab edilə bilər. Anım günü giriş sözü ilə açılmalı, Azərbaycanın dövlət himni səslənməli, faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilməli, daha sonra faciənin şahidlərinə söz verilməlidir. Faciəni onların dilindən dinləmək tədbir iştirakçıları üçün daha təsirli olacaqdır.

Şanlı Zəfər Gününün ildönümü ilə əlaqədar təşkil olunacaq tədbirlər sırasında ***“Məktublarda Zəfər”*** **Anım layihəsi**nin hazırlanması da məqsədəuyğundur. Bu tarixin bizim xalqımız üçün nə dərəcədə önəmli olduğunun gənc nəslin nümayəndələri arasında təbliğ edilməsində bu cür layihələrin rolu əvəzsizdir. Bu layihə şəhid ailələrinin, qazilərin və müharibə iştirakçılarının xatirələrini və məktublarını ictimaiyyətə çatdırmaq üçün nəzərdə tutulub.

Kitabxanalara bu materialları toplayaraq xüsusi sərgi guşəsi yaratmaları tövsiyə olunur. Hazırlıq prosesi başa çatdıqdan sonra

tədbirin keçiriləcəyi yer və vaxt göstərilən elan hazırlanmalı, sayt və sosial şəbəkələr vasitəsilə oxucuların nəzərinə çatdırılmalıdır. Tədbir anım mərasimi ilə başlamalı və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilməlidir. Tədbir zamanı oxucuların və könüllülərin məktubları səsləndirmələri nəzərdə tutulmalıdır. Məktublar kitabçaya çevrilərək kitabxanada saxlanıla bilər. Sonda iştirakçılar öz arzularını və minnətdarlıq məktublarını yazıb xüsusi lövhəyə yapışdıra bilərlər.

Bu cür tədbirlər gənclərin vətənpərvərlik ruhunun gücləndirilməsində mühüm rol oynayır. Məktubların oxunması ailələr arasında mənəvi bağ yaradır. Tədbirə sonda **"Qarabağ Azərbaycandır!"** devizi ilə yekun vurula bilər. Bu layihə kitabxananın arxiv fondunun zənginləşdirilməsinə də xidmət edəcəkdir.

# ƏLAVƏLƏR

***Əlavə 1***

## Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Ermənistanın Azərbaycana qarşı 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsinə başlamışdır.

Haqq və Şərəf işimiz olan, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirmişdir.

Azərbaycan Ordusunun zəfər yürüşünə dözə bilməyən düşmən təxribatlara əl ataraq, günahsız mülki insanları hədəfə almaqla müharibə cinayətləri törətmişdir.

Həmvətənlərimizin bir çoxu şəhid olmuş, itkin düşmüş, yaralanaraq sağlamlığını itirmişdir. Torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edilmişdir. Müzəffər Ordumuzun bu gün yazdığı tarix sabah daha da güclü inkişaf edəcək, çiçəklənəcək Azərbaycan üçün möhkəm bünövrədir. Bu, eyni zamanda, regionda dayanıqlı və uzunmüddətli sülhü, əmin-amanlığı və təhlükəsizliyi təmin edən mühüm amildir.

Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir,

xatirəsini uca tutur. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qərara alıram:

1. Hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 2 dekabr 2020-ci il*

*Əlavə 2*

## Bakı şəhərində Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Bakı şəhərində Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyi yaradılsın.

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Bakı Şəhər İcra Hakimiyyəti ilə birlikdə Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin yeri və layihələndirilməsi ilə bağlı təkliflərini hazırlayıb iki ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti üç ay müddətində:

3.1. Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin layihələndirilməsi və tikintisinin maliyyələşdirilməsi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev,**

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 3 dekabr 2020-ci il*

*Əlavə 3*

## 8 noyabr – Zəfər Günü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı

Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin 44 günlük Vətən müharibəsində qələbəsi şərəfinə təsis edilmiş Zəfər Günü bu il noyabrın 8-də ilk dəfə qeyd ediləcəkdir. Azərbaycan xalqının və dövlətinin qüdrətinin rəmzinə çevrilmiş bu möhtəşəm Zəfərin tarixi əhəmiyyəti bir əsrin hüdudlarına sığmır. 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyulması, dövlətimizin ərazi bütövlüyünün təmin edilməsi ilə birlikdə, son iki yüz ilə yaxın dövrdə Azərbaycan xalqına çoxsaylı milli fəlakətlər gətirən erməni şovinizminə və ekspansionizminə sarsıdıcı zərbə endirilmiş və xalqımızın tarixi taleyi ilə bağlı olan son dərəcə mühüm bir məsələ həll edilmişdir.

Məlum olduğu kimi, XIX əsrin əvvəllərində çar Rusiyası Araz çayından şimalda yerləşən Azərbaycan xanlıqlarını işğal etdikdən sonra bölgənin etnik mənzərəsini dəyişdirib öz dayaqlarını möhkəmləndirmək üçün bütün XIX əsr boyu İrandan və Türkiyədən 1 milyondan çox ermənini Cənubi Qafqaza köçürmüşdür. Bölgənin demoqrafik mənzərəsinin dəyişdirilməsi ilə yanaşı, erməni dini-ideoloji ekspansiyasına da rəvac verilmişdir. 1836-cı ildə çar hökuməti Qarabağdakı alban xristian kilsəsini erməni kilsəsinə tabe etmişdir. Bundan sonra Eçmiədzin erməni kilsəsi albanların etnik-mədəni irsini, alban ədəbiyyatını və tarixini öz adına çıxaraq mənimsəmişdir.

XIX əsrin sonlarına yaxın erməni şovinistləri “Armenakan”, “Hnçak” və “Daşnaksütyun” kimi millətçi partiyalar yaradaraq

dənizdən-dənizə “Böyük Ermənistan” mifi ilə bağlı ideyanın həyata keçirilməsinə silahlı mübarizə və terror yolu ilə zəmin hazırlamağa başlamışlar. 1905–1907-ci illərdə, habelə 1918-ci ildə onlar Bakıda, Tiflisdə, İrəvanda, Naxçıvanda, Gəncədə, Qarabağda, Zəngəzurda, Göyçədə və digər yerlərdə azərbaycanlılara kütləvi şəkildə divan tutmuş, şəhər və kəndləri yandırmış, uşaqları, qadınları, qocaları misilsiz qəddarlıqla öldürmüşlər. Erməni vəhşiliyindən sağ qurtara bilən on minlərlə azərbaycanlı doğma yurd-yuvasını tərk etməyə məcbur olmuşdur. Azərbaycanlılardan təmizlənən ərazilər 1918-ci ildə müstəqilliyini elan etmiş Ermənistan Respublikasına qatılmışdır. Ermənistanda və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bolşevik rejiminin əli ilə Azərbaycan torpaqlarının daha bir hissəsi, o cümlədən Qərbi Zəngəzur Ermənistanın tərkibinə daxil edilmiş, nəticədə onun ərazisi 9,8 min kvadrat-kilometrdən 29,8 min kvadrat-kilometrə çatdırılmışdır.

Azərbaycanlılara qarşı düşmənçilik siyasəti sovet hakimiyyəti illərində də davam etdirilmişdir. Ermənistan ərazisində qalan, ata-baba torpaqlarında elliklə yaşayan yüz minlərlə azərbaycanlıya muxtariyyət verilmədiyi halda, Azərbaycan ərazisində ermənilər üçün qondarma “Dağlıq Qarabağ Muxtar Vilayəti” təşkil edilmişdir. SSRİ rəhbərliyinin köməyi ilə Ermənistan SSR-in hakim dairələri 1948–1953-cü illərdə Ermənistandan yüz minlərlə azərbaycanlının deportasiya edilməsinə nail olmuşlar. Azərbaycanlılara qarşı kəskin mənəvi təcavüz kampaniyası aparılmışdır. Son yüz ildən artıq dövrdə erməni xalqının bir neçə nəsli milli müstəsnalıq ruhunda tərbiyə edilmişdir. Erməni “alim”lərinin səyləri ilə bölgənin tarixi saxtalaşdırılmış, erməni dövlətinin olmayan tarixi uydurulmuş, Cənubi Qafqazda baş verən hadisələr bilərəkdən təhrif edilmişdir.

Azərbaycana qarşı ərazi iddialarını həyata keçirmək üçün Ermənistanın 1988-ci ildə başladığı, 1992-ci ildə isə miqyasını

genişləndirdiyi etnik təmizləmə siyasəti və işğalçılıq müharibəsi nəticəsində Azərbaycan Respublikası ərazisinin 20 faizi işğal olunmuş, Ermənistan ərazisindən və Azərbaycanın işğal edilmiş bölgəsindən 1 milyondan çox azərbaycanlı qovulmuşdur. Azərbaycanlılara qarşı milli nifrət və düşmənçilikdən qaynaqlanan ağır cinayət aktları həyata keçirilmiş, XX əsrin ən dəhşətli faciələrindən olan Xocalı soyqırımı, bir sıra digər qətliam əməlləri törədilmişdir.

1994-cü ilin mayında münaqişənin sülh yolu ilə həllinə şərait yaratmaq məqsədi ilə Ermənistanla Azərbaycan arasındakı cəbhə xəttində atəşkəs elan olunduqdan sonra Ermənistan rəhbərliyinin bütün fəaliyyəti münaqişənin həllinə deyil, işğalın nəticələrinin möhkəmləndirilməsinə yönəlmişdir. Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını birmənalı şəkildə təsdiqləyən və Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələrə, eləcə də BMT Baş Məclisinin 2008-ci ildə qəbul etdiyi 62/243 nömrəli qətnaməyə, Avropa Parlamentinin, Avropa Şurası Parlament Assambleyasının, İslam Əməkdaşlığı Təşkilatının, digər beynəlxalq qurumların müxtəlif illərdə qəbul etdikləri qətnamələrə etinasızlıq göstərilmişdir. Münaqişənin nizama salınması üçün yaradılmış ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqlardan Azərbaycan torpaqlarının işğalının nəticələrini bu və ya digər şəkildə rəsmiləşdirmək, bu mümkün olmadıqda isə vaxt uzatmaq üçün istifadə edilmişdir.

Ermənistan rəhbərliyi cəzasız qalmasından istifadə edərək, sülh prosesini birdəfəlik pozmağa cəhdlər göstərmişdir. Bu məqsədlə 2016-cı ilin aprel ayında, 2020-ci ilin iyul və avqust aylarında Azərbaycan

Silahlı Qüvvələrinə qarşı təxribatlar törədilmişdir. Həmin təxribatlara cavab olaraq Azərbaycan Respublikasının gördüyü tədbirlər Ermənistan silahlı qüvvələrinin canlı qüvvə və hərbi texnika sarıdan böyük itkilər verməsinə gətirib çıxarmışdır.

Ermənistan rəsmiləri öz bəyanatları və davranışları ilə sübut etmişlər ki, bu dövlət nəinki işğal altında olan əraziləri qaytarmağa və ədalətli sülh əldə etməyə hazırlaşmır, əksinə, Azərbaycanın yeni ərazilərini işğal etmək niyyəti güdür. İşğal olunmuş ərazilərdə qanunsuz məskunlaşdırma siyasətinin genişləndirilməsi, danışıqların formatını dəyişdirməyə cəhdlər göstərilməsi, Ermənistan müdafiə nazirinin "yeni ərazilər üçün yeni müharibə" iddialarını səsləndirməsi, digər bəyanatlar və hərəkətlər işğalçı dövlətin rəhbərliyinin əsl niyyətlərini üzə çıxarmışdır.

Azərbaycan dövlətinin rəhbərliyi onilliklər boyu bəyan etmişdir ki, Azərbaycan Respublikası öz ərazisinin bir hissəsində suverenliyinin qəsb edilməsinə, torpaqlarının quldurcasına zəbt edilməsinə və qoparılmasına heç zaman razı ola bilməz və bütün imkanlardan istifadə edərək ərazi bütövlüyünün bərpasına nail olacaqdır. 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti təcavüz aktından sonra Azərbaycan Respublikası BMT-nin Nizamnaməsinin verdiyi özünümüdafiə hüququndan istifadə edərək, təcavüzkarı sülhə məcbur etmək, Azərbaycan torpaqlarının işğalına son qoymaq məqsədi ilə əks-hücum əməliyyatına başlamışdır.

Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri 44 gün davam edən Vətən müharibəsində heyrətamiz qələbələr əldə edərək dünya hərb tarixinə yeni şanlı səhifələr yazmışlar. İşğalçı qüvvələrə ağır zərbələr endirilmiş, onların çoxlu sayda canlı qüvvəsi və hərbi texnikası məhv edilmişdir. Ölkəmizin işğal altında olan ərazisinin böyük bir hissəsi, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan,

Qubadlı rayonları, Hadrut və Suqovuşan qəsəbələri, ümumən 300-ə yaxın yaşayış məntəqəsi azad edilmişdir. Vətən müharibəsinin ən şərəfli səhifələrindən biri noyabr ayının 8-də Qarabağın incisi və tacı, Azərbaycan mədəniyyətinin beşiyi olan Şuşanın əsarətdən xilas edildiyi gün olmuşdur.

Azərbaycan Silahlı Qüvvələri qarşısında duruş gətirə bilməyəcəyini, məhvə məhkum olduğunu anlayan Ermənistan məğlubiyyətini etiraf etmişdir. Azərbaycan Silahlı Qüvvələrinin əldə etdiyi hərbi Zəfər siyasi müstəvidə qazanılan qələbə ilə tamamlanmışdır. 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları üçtərəfli bəyanat 30 ildən artıq davam edən münaqişəyə son qoymuşdur.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasında həyatın bütün sahələrində böyük nailiyyətlər əldə edilmişdir. Müasir dövrün tələbləri səviyyəsində qurulmuş sosial-iqtisadi inkişaf strategiyası Azərbaycanı dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə və Cənubi Qafqaz bölgəsinin lider dövlətinə çevirmişdir. 1993-cü ildə Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra başlanmış, son 18 ildə uğurla davam etdirilmiş hərbi siyasət Azərbaycan Silahlı Qüvvələrini yüksək standartlar əsasında inkişaf etdirərək dünyanın 50 ən güclü ordusu sırasına çıxarmağa imkan vermişdir.

Bütün bu amillər, eləcə də iqtidarla xalq arasında mövcud olan sarsılmaz birlik Ermənistan–Azərbaycan münaqişəsinin həllini təmin etmişdir. Erməni şovinistlərinin Azərbaycan xalqına və dövlətinə qarşı uzun dövr ərzində həyata keçirdikləri etnik təmizləmə, işğalçılıq və ekspansionizm siyasətinin qarşısının alınması ilə bağlı tarixi missiya uğurla yerinə yetirilmiş və tarixi ədalət bərpa olunmuşdur.

8 Noyabr Zəfəri müzəffər Ali Baş Komandanın yenilməz iradəsinin və böyük sərkərdəlik məharətinin, Azərbaycan Silahlı

Qüvvələrinin döyüş əzminin, rəşadətinin, yüksək hərbi-texniki, mənəvi-psixoloji hazırlığının və peşəkarlığının təntənəsi olmuşdur. Azərbaycanın əzəli tarixi torpağı olan Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsi xalqımızı uzun illər davam edən məğlubiyyət acısından qurtarmış və onu qalib xalqa çevirmişdir. Qüdrətli Azərbaycan yerləşdiyi bölgənin siyasi, iqtisadi, hərbi, humanitar mənzərəsini dəyişməyə qadir olduğunu, bundan sonra heç kəsin onunla güc və təzyiq dili ilə danışa bilməyəcəyini qətiyyətlə nümayiş etdirmişdir.

Azərbaycan Respublikasının Milli Məclisi əmin olduğunu bildirir ki, 44 günlük Vətən müharibəsində Azərbaycan Silahlı Qüvvələrinin möhtəşəm Zəfəri təkcə bizim ölkəmizin deyil, həm də bütün Cənubi Qafqaz bölgəsinin əmin-amanlığı və inkişafı üçün yeni imkanlar yaratmışdır. Bu imkanların reallaşması üçün Azərbaycan Respublikası Ermənistan Respublikası ilə beynəlxalq hüquq prinsiplərinə və normalarına uyğun olaraq, bir-birinin suverenliyinin, ərazi bütövlüyünün və beynəlxalq sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və bunlara hörmət edilməsi əsasında normal qonşuluq münasibətləri qurmağa hazırdır. Azərbaycan Respublikasının Milli Məclisi bəyan edir ki, beynəlxalq ictimaiyyət Ermənistanı Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü hədəf alan qisasçı ritorikaya və hərəkətlərə son verərək, yuxarıda göstərilən əsasda Azərbaycanla ikitərəfli münasibətlər qurmaq istiqamətində konstruktiv addımlar atmağa sövq etmək üçün təsirli tədbirlər görməlidir.

*(Bəyanat Azərbaycan Respublikası Milli Məclisinin 2021-ci il 5 noyabr tarixli iclasında qəbul edilmişdir)*

*Əlavə 4*

# Bakı Metropoliteninin yeni stansiyasının "8 Noyabr" adlandırılması haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təşəbbüsünə əsasən Bakı Metropoliteninin Nəsimi rayonu, Ceyhun Səlimov küçəsi, 1065-ci məhəllə ünvanında yerləşən yeni stansiyası "8 Noyabr" adlandırılsın.

2. Bakı Şəhər İcra Hakimiyyəti və "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

**Əli Əsədov,**
*Azərbaycan Respublikasının Baş naziri*
*Bakı şəhəri, 8 dekabr 2020-ci il, №487*

*Əlavə 5*

## **“Dəmir yumruq” abidəsi**



Hadrutda yerləşən **“Dəmir yumruq”** abidəsi 2021-ci ilin iyun ayında ucaldılıb. Bu abidə, Azərbaycan Silahlı Qüvvələrinin işğal altında olan torpaqların azad edilməsi uğrunda başlatdığı döyüş əməliyyatlarının adı olan “Dəmir yumruq” əməliyyatını simvolizə edir. Abidənin üzərində Vətən müharibəsində düşmənin qorxulu yuxusuna çevrilən qəhrəman Azərbaycan əsgəri və dronlar təsvir edilib.

Abidənin yerləşdiyi ərazi, zəfər şəhidlərinin xatirə kompleksinin qarşısındadır və bu, abidənin əhəmiyyətini daha da artırır. “Dəmir yumruq” əməliyyatı nəticəsində Azərbaycan Ordusu 44 gün ərzində işğalçı Ermənistanı ağır məğlubiyyətə uğradaraq kapitulyasiya aktını imzalamağa məcbur etdi. Prezident İlham Əliyev müharibədən sonrakı

dövrdə revanşist bəyanatlar səsləndirən düşmənə “Dəmir yumruğu” xatırladaraq, onun daim yerində olduğunu bildirib.

Abidənin layihəsi “Plener Group” tərəfindən hazırlanmışdır. Layihənin memarı gənc memar Gülər Elxan qızı, yumruq üzərində işləyən rəssamlar isə Elxan Əliyev, Azər Məmmədov və Fərid Nəcəfovdur. Layihənin təşkilatçısı isə Cavid Əhmədovdur.

Bu abidə, Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda göstərilən qəhrəmanlığın və fədakarlığın simvoludur.

## Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyi



2020-ci il dekabrın 3-də Prezident İlham Əliyevin sərəncamı ilə Bakı şəhərində Vətən müharibəsində qələbənin şərəfinə yaradılmış Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyi abidə-kompleksinin tərkibinə Zəfər Muzeyi, Zəfər Parkı və Hərbi Qənimətlər Parkı daxildir. dır.

# Hərbi Qənimətlər Parkı




12 aprel 2021-ci ildə açılışı olmuş Hərbi Qənimətlər Parkı Bakı şəhərində Dənizkənarı Milli Parkda yerləşir. Azərbaycan Silahlı Qüvvələrinin İkinci Qarabağ müharibəsində qazandığı qələbəyə həsr olunub. Parkda Ermənistan Silahlı Qüvvələri məxsus olduğu bildirilən, Rusiya istehsallı tank, "Qrad" qurğuları, top və digər müharibə texnikası nümayiş etdirilir.

Prezidenti İlham Əliyevin "Qələbə" tvitləri, aparıcı media qurumlarına müsahibələr, xalqa müraciətlərdən ibarət hissələr Parkın ərazisindəki videozalda nümayiş etdirilir.

Parkın mühəndis-maneələr sistemini ehtiva edən ərazisində 5 metr enində, 3-4 metr dərinlikdə qazılan tank əleyhinə xəndək, mina sahəsi, tank əleyhinə beton dirəklər və metal kirpilər, alçaq dirəklər üzərində tikanlı məftildən tor, hündür dirəklərdə məftilli tor, piyada

əleyhinə mina sahəsi, az nəzərə çarpan və üççərgəli lent tipli məftil maneələri, həmçinin səngər üzərində lent tipli məftil maneələr nümayiş olunur. Bu maneələr sistemi Füzuli, Cəbrayıl, Ağdam, Tərtər və Goranboy istiqamətlərində Azərbaycan Silahlı Qüvvələri bölmələrinin dəf etməli olduğu mühəndis sistemlərindən idi.

Parkda döyüş postu və əsgər kazarması yerləşir. Kazarmanın yanında şəxsi heyətin artilleriya və hava hücumundan qorunması üçün zavod üsulu ilə hazırlanmış sığınacaqlar, döyüş mövqeyində atıcı, pulemyotçu, qumbaraatan səngərləri, uzunmüddətli atəş nöqtələri yerləşir.

## Gəncə Memorial Kompleksi




Prezident İlham Əliyevin 2022-ci ilin yanvarında təməlini qoyduğu bu kompleks İkinci Qarabağ müharibəsi zamanı Ermənistanın raket hücumlarının qurbanı olmuş günahsız insanların

əziz xatirəsini əbədiləşdirmək və müharibənin acı reallıqlarını gələcək nəsillərə çatdırmaq məqsədi daşıyır.

Kompleks məhz həmin zərbələrdən birinin endirildiyi ərazidə - yaşayış binalarının yerində inşa olunub və dörd hektar sahəni əhatə edir. Orijinal memarlıq həlli ilə seçilən abidə spiralvari forması ilə raketin yerdə buraxdığı izi - krateri simvolizə edir. Kompleksin açıq meydanında isə dağıdılmış binaların qalıqları xüsusi instalyasiya şəklində qorunub-saxlanılıb.

Gəncə Memorial Kompleksi 27 sentyabr 2025-ci ildə, Anım Günündə rəsmi açılış mərasimi ilə istifadəyə verilib.

## Bakı – Zəfər Parkı



Bakı şəhərinin Xətai rayonunda, 8 Noyabr prospektində yerləşən Zəfər Parkı, Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizənin və qələbənin simvoludur. Parkın girişində yerləşən Zəfər Tağı, 44 tağ elementindən ibarət olub, hər biri 44 günlük Vətən müharibəsini və qələbəni təmsil edir. Bu monumental abidə, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda göstərilən qəhrəmanlığın əbədiləşdirilməsinə xidmət edir.

Park 8 noyabr 2024-cü ildə açılmışdır.

## Astara – Zəfər Parkı




25 iyun 2021-ci ildə Astara şəhərində açılışı olmuş Zəfər Parkı, Vətən müharibəsində şəhid olanların xatirəsini əbədiləşdirmək

məqsədilə salınmışdır. Parkda şəhidlərin xatirəsinə həsr olunmuş abidələr və xatirə lövhələri yerləşir. Bu park həmçinin vətəndaşların asudə vaxtlarını səmərəli keçirmələri üçün istirahət zonaları ilə zəngindir.

## Xaçmaz – Zəfər Parkı




8 noyabr 2021-ci ildə Xaçmaz şəhərində açılan Zəfər Parkı, Azərbaycanın şimal bölgəsində yerləşən mühüm mədəniyyət və istirahət mərkəzlərindən biridir. Parkda şəhidlərin xatirəsinə həsr olunmuş abidələr və müxtəlif istirahət zonaları mövcuddur. Bu park həmçinin yerli sakinlər və turistlər üçün təbii gözəllikləri ilə seçilən bir ərazidir.

# Lerik – Zəfər Parkı




14 noyabr 2021-ci il tarixində Lerik şəhərində açılışı olmuş Zəfər Parkı, dağlıq ərazisi və təbii gözəllikləri ilə tanınır. Parkda şəhidlərin xatirəsinə həsr olunmuş abidələr və müxtəlif istirahət zonaları mövcuddur. Bu park həmçinin ekoturizm və dağ yürüşləri üçün əlverişli şərait təqdim edir.

# Naxçıvan – Zəfər Parkı




NMR Ali Məclisi sədrinin 7 fevral 2022-ci il tarixli sərəncamı ilə Naxçıvan şəhərində Zəfər Abidəsi yaradılıb, Zəfər Parkı salınıb. Parkda şəhidlərin xatirəsinə həsr olunmuş abidələr və müxtəlif mədəniyyət tədbirlərinin keçirilməsi üçün nəzərdə tutulmuş sahələr mövcuddur. Bu park həmçinin Naxçıvanın təbii gözəlliklərini və tarixi abidələrini ziyarət etmək istəyənlər üçün ideal bir yerdir.

## Ədəbiyyat


1. **Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında:** Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 2 dekabr 2020-ci il //Azərbaycan.- 2020.- 3 dekabr.- S.1.
2. **Əliyev, N.** 8 Noyabr Zəfər günü - suverenliyə aparan yol: [monoqrafiya] /Nurulla Əliyev; layihə rəhb. G.Ə.Əbdülov; elmi red. A.H.Həsənov; baş red. Y.K.Kərimov; red. S.N.Ələkbərova; Azərb. Resp. Milli Müdafiə Un-ti.- Bakı: [AFpoliqrAF], 2025.- 213, [3] s.
3. **İnkişaf-məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər** /İlham Əliyev; buraxıl. məsul R.Mehdiyev.- Kitab 106: Sentyabr 2020-Oktyabr 2020.- Bakı: Azərnəşr, 2021.- 392 s.
4. **İnkişaf-məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər** /İlham Əliyev; buraxıl. məs. R.Mehdiyev.- Kitab 107: Oktyabr 2020-Noyabr 2020.- Bakı: Azərnəşr, 2021.- 391 s.
5. **İnkişaf-məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər** /İlham Əliyev; buraxıl. məsul R.Mehdiyev.- Kitab 108: Noyabr 2020-Dekabr 2020.- Bakı: Azərnəşr, 2021.- 391 s.
6. **Qəhrəmanlıq salnaməsi: Zəfər gününə həsr olunmuş yazı müsabiqəsinin toplusu** /[Milli İrsi Mədəni Tarixi Araşdırmalar Fondu (MİMTA)]; buraxıl. məsul S.Ramizoğlu; red. Ə.Aslanoğlu; red. hey.: A.Əziz [ön söz [və b.]]; qapaq dizaynı M.Əziz.- Bakı: MİMTA Yayımları, 2022.- 448, [7] s.
7. **Vəliyeva, Z.** Zəfərimiz mübarək: [Zəfər günü: 8 Noyabr] /Zülfiyyə Vəliyeva; red. və naşir M.Borçalı; [buraxıl. məsul İ.Sabirqızı].- Bakı: “Borçalı”; İstanbul, 2024.- 120 s.

8. **Zəfər salnaməsi** /YAP; baş red. N.Cabbarlı; red.: G.Cəfərova, A.Quliyeva; buraxılışa məs. R.Kazımov; dizayn. N.Nəhmətov.- Bakı: Şərq-Qərb, 2021.- 535 s.
9. **Zəfər salnaməsinin 44 günü.-** Bakı: Maarif, 2021.- 318, [2] s.

***

10. **Məmmədova, A.** 8 Noyabr - Zəfər Günü: metodik vəsait: [elektron resurs] /tərt. ed. A.Məmmədova; ixtisas red. K.M.Tahirov; red. L.Əhmədova.- Bakı, 2021.- 55 s. URL: http://anl.az/down/zefer.gunu.pdf

***

11. **Bayramov, V.** "İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir" /Vaqif Bayramov //Xalq qəzeti.- 2021.- 29 iyul.- S.1. URL: http://www.anl.az/down/meqale/xalqqazeti/2021/iyul/751761(meqale).pdf
12. **Binyatoğlu, V.** Vətən müharibəsinin xronikası: 8–9 noyabr: Zəfər marafonunun 43 və 44-cü günləri /Vaqif Binyatoğlu //Xalq qəzeti. -2024.- 8 noyabr (№247).- S.12. URL: http://www.anl.az/down/meqale/xalqqazeti/2024/noyabr/918774(meqale).pdf
13. **Nəcəfov, Ş.** Arxeologiyamızın 8 noyabr səhifəsi: 8 noyabr Zəfər Bayramı /Şamil Nəcəfov //Elm.- 2024.- 7 noyabr (№36).- S.6. URL:http://www.anl.az/down/meqale/elm/2024/noyabr/933308(meqale).pdf
14. **Yusifoğlu, İ.** Zəfər Günü: 8 Noyabr zəfər nəğməsi /İbrahim Yusifoğlu //Elm.- 2024.- 7 noyabr (№36).- S.8. URL: http://www.anl.az/down/meqale/elm/2024/noyabr/933298.htm

***

15. **Алиханов, Г.** Путь Победы /Гусейн Алиханов //Бакинский рабочий.- 2021.- 23 апреля.- С.3-4. URL: http://www.anl.az/down/meqale/bakrabochiy/2021/aprel/742104(meqale).pdf
16. **100 дней Победы.** Ильхам Алиев подтвердил, что Карабах - это Азербайджан! //Бакинский рабочий.- 2021.- 18 февраля.- С.1. URL:http://www.anl.az/down/meqale/bakrabochiy/2021/fevral/735067.htm

***

17. https://www.president.az/
18. https://www.millikitabxana.az/
19. https://nk.gov.az/az/senedler/qerarlar/baki-metropoliteninin-yeni-stansiyasinin--%E2%80%9C8-noyabr%E2%80%9D-adlandirilmasi-haqqinda-4984

# Mündəricat

Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı............................3

Tərtibçidən.......................................................................................6

Zəfər Günü – tarixi qələbənin ədəbiləşdirilməsi................................ 7

Zəfər Günü ilə bağlı kitabxanalarda keçiriləcək tədbirlər..................10

Əlavələr ......................................................................................... 19

Ədəbiyyat........................................................................................ 37